**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YENİYETMƏLƏRDƏ ÖZÜNÜAKTUALLAŞDIRMANIN PEŞƏ SEÇİMİNƏ TƏSİRİNİN PSİXOPEDAQOJİ ƏSASLARI

İxtisas: 6104.01- Pedaqoji psixologiya
Elm sahəsi: Psixologiya
İddiaçı: **Sevinc Rafiq qızı Orucova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Sosial və pedaqoji psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Psixologiya elmləri doktoru, professor **Kamilə Ramiz qızı Əliyeva**

**Rəsmi opponentlər:** Psixologiya elmləri doktoru, professor **Gülnarə Kazım qızı Qurbanova**

Psixologiya üzrə fəlsəfə doktoru **Lalə Adil qızı Əliyeva**

Psixologiya üzrə fəlsəfə doktoru **Günay Salman qızı Kazımova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Psixologiya elmləri doktoru, professor **Kamilə Ramiz qızı Əliyeva**

________________ (imza)

Dissertasiya şurasının elmi katibi: psixologiya üzrə fəlsəfə doktoru **Müşviq Hüseyn oğlu Mustafayev**

________________ (imza)

Elmi seminarın sədri: Psixologiya elmləri doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

________________ (imza)

İmzanı təsdiq edirəm
BAKI DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ KATİBİ
______ prof. V.M.SALMANOV
(imza)
«03» 02 2022

# İŞİN ÜMUMİ MƏZMUNU

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Müasir dövrdə texnoloji inkişafın sürətlənməsi, yeni peşə sahələrinin ortaya çıxması, dünyaya inteqrasiyanın dinamikliyinin artması peşə seçimində hərtərəfli dəyişikliklər yaratmışdır.

Müxtəlif peşə sahələrinə verilən tələblərin artması bazar iqtisadiyyatı şəraitində peşə seçilməsi prosesini mürəkkəbləşdirir və insan amilinin bu dəyişikliklərə adaptasiyasını tələb edir. Bu baxımdan hər hansı peşənin seçilməsi prosesi, həmçinin bu seçimdə insan amilinin nəzərə alınması, mövcud potensialın seçilmiş peşəyə müvafiqliyi və s. kimi məsələlər aktuallığı ilə ön plana çıxır. Peşə haqqında real təsəvvürlərin yeniyetməlik yaş dövründə təşəkkül etdiyini nəzərə alsaq, o zaman yeniyetmələrdə bu prosesin istiqamətlərinin və psixoloji mexanizmlərinin müəyyənləşdirilməsinin cəmiyyət üçün fayda gətirəcəyi şübhəsizdir.

Nəzərə almaq lazımdır ki, peşə seçimi fərdin öz imkanlarını, öz potensialını gerçəkləşdirməsi, daha dəqiq desək, özünüaktuallaşdırması ilə sıx bağlıdır. Yeniyetmələrdə peşə seçiminin özünüaktuallaşdırma ilə eyni istiqamətə yönəlməsi həm yeniyetmənin şəxsiyyət kimi formalaşmasına, özünü peşə sahəsində tapmasına, həm də öz potensialının uyğun sahədə gerçəkləşdirməsinə zəmin yaradır.

Faktlar göstərir ki, müxtəlif hallarda təlimdə effektivliyin azalması, təlim motivlərinin və maraqlarının zəifləməsi bilavasitə yeniyetmələrin öz potensialını dərk edə bilməməsi və özünün həyata yolunun perspektivlərini ayırd etməyi bacarmamasıdır. Peşə seçiminin adekvat həyata keçirilməsi yalnız cəmiyyətdə mövcud peşələrin və ya ixtisasların prestijindən və tutduğu mövqedən asılı deyildir. O həm də peşə haqqında təsəvvürlərin yeniyetmənin özü ilə identikləşdirməsindən, öz potensialını üzə çıxara bilməsindən asılıdır. Məhz bu aspektdən yeniyetmələrdə peşə seçiminə özünüaktuallaşdırmanın təsirinin psixoloji mexanizmlərini aydınlaşdırmaq, təlim fəaliyyətini yeniyetmənin özünüaktuallaşdırması prinsipi üzərində qurmaq lazımdır. Əksər hallarda özünüaktauallaşdırıb gerçəkləşdirən yeniyetmələrdə təlim uğurları digərlərinə nisbətən daha yüksəkdir və həyata ssenariləri daha konsep-

tualdır. Bu baxımdan yeniyetmənin həyat perspektivləri üçün zəruri olan peşə seçiminin onların özünüaktuallaşdırması prosesi üzərində qurulması peşə sahələrinin inkişafı üçün,o cümlədən yeniyetmənin gələcəkdə rəqabətə, stressdayanıqlı şəxsiyyət kimi formalaşmasına zəmin yaradar.

Qeyd etmək lazımdır ki, yeniyetməlik yaş dövrü təlimin bu və ya digər növünə yiyələnmək üçün zəruri olan senzitiv, həssas və yüksək qavrama fəaliyyəti kimi keyfiyyətlərə malik yaş dövrüdür. Yeniyetmə bu dövrdə təlim fəaliyyətinin bütün növlərini dərk etməyə, dərs zamanı müxtəlif iş formalarını həyata keçirməyə hazır olur, məktəbdənkənar vaxtlarda öz idrak fəaliyyətini tənzim etmək imkanına yiyələnir.

Bütün bunlar göstərir ki, müasir dövrdə yeniyetmələrdə özünüaktuallaşdırmanın peşə seçiminə təsirinin psixopedaqoji məsələləri etnik-mədəni mühitdə bu problemlər lazımınca və sistemli tədqiq olunmamış və ümumiyyətlə bu sahədəki tədqiqatlar fraqmentar xarakter daşıyır. Bu da problemin müasrir şəraitdə aktual olduğunu bir daha təsdiqləyir və «Müasir dövrdə yeniyetmələrdə özünüaktuallaşdırmanın peşə seçiminə təsirinin psixopedaqoji məsələləri» mövzusunun tədqiqat obyekti kimi seçilməsinin məqsədəuyğunluğundan xəbər verir.

Yeniyetmələrdə peşə seçimi və özünüaktuallaşdırma müxtəlif istiqamətlərdən tədqiq olunmuşdur. Bu sahədə aparılmış tədqiqatlarım əsasən üç yönümünü müəyyənləşdirmək olar. Birinci istiqamət yeniyeyetməlik yaş dövrünün tədqiqi ilə bağlıdır. Buraya fundamental tədqiqatlardan tutmuş ayrı-ayrı məqamların öyrənilməsinə qədər geniş bir diapazonda tədqiqatları şamil etmək olar (A.Qezell, A.Freyd, M.Mid, J.Piaje, C.Bruner, L.S.Vıqotski, A.B.Petrovski, V.S.Muxina, V.V.Davıdov və b.). Azərbaycan da bu yə sanballı tədqiqatlar həsr olunmuşdur (F.İbrahimbəyov, A.Makovelski, Ə.Bayramov, Ə.Əlizadə, B.Əliyev, K.Əliyeva, Ə.Baxışəliyev, R.Qədirova, R.Cabbarov, N.İsmayılova, E. Şəfiyeva, N.Muxtarova, H.Əlizadə və b.). Bu tədqiqtalarda yeniyetməlik yaş dövrü müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Burada yeniyetmənin yaş xüsusiyyətləri ilə yana-

şı, onları koqnitiv və emosional inkişafı, cinsi deformizm, özünüdərketmə, mənlik şüuru və s. kimi problemlər araşdırılmışdır.

İkinci istiqamət peşəseçimi ilə bağlıdır. Çünki bir sıra tədqiqatlarda (P.K. Anoxin, A.N. Leontyev, B.F. Lomovun , N.A. Rıbnikov, İ.N. Şpilreyn, A.N. Leontyev, F.N. Qonobolin, B.M. Teplov, Y.A. Klimov, İ.S. Kon, A.Y. Qolomştok, N.S. Pryajnikov, N.N. Çistyakov, A.D.Sazonova və b.) yalnız peşə seçiminin istiqamətləri və mexanizmləri, onun formalaşmasına təsir göstərən amillər öyrənilmişdir.

Azərbaycan psixologiyasında da peşə seçiminə həsr olunmuş təddiqatlar yetərincədir (F.İbrahimbəyov, Ə.Bayramov, Ə.Əlizadə, B.Əliyev, R.İbrahimbəyova, S.Seyidov,K.Əliyeva, R.Qədirova, G.Qurbanova, R.İbrahimbəyova, R.Əliyev, E.Şəfiyeva, G.Hüseynova, L.Cabbarova, C.Alıyev, G.Qurbanova, Ə.Baxşəliyev, R.Cabbarov, E.Bəylərov, M.Mustafayev, L.Bağırlı, H.Əlizadə, M.İlyasov, Ə.Ağayev, L.Qasımova, A.Abbasov, Q.Abbasova, N.Muxtarova, F.Rüstəmov, S.Nuruyev, V b.). Bu tədqiqatlarda peşə seçiminə verilən psixopedaoji tələblər və peşəyönümünün, özünütəyinin formalaşması istiqamətləri tədqiq edilmişdir.

Üçüncü istiqamət özünüaktuallaşdırmanın tədqiqidir. Psixologiyada özünüaktuallaşdırmanın bir sıra aspektləri Azərbaycan tədqiqatçıları (F.İbrahimbəyov,Ə.Bayramov,Ə.Əlizadə, B.Əliyev, S.Seyidov,K.Əliyeva,R.Qədirova, G.Qurbanova, R.İbrahimbəyova, R.Əliyev, E.Şəfiyeva, G.Hüseynova, L.Cabbarova, C.Alıyev, G.Qurbanova, Ə.Baxşəliyev, R.Cabbarov, E.Bəylərov, M.Mustafayev, L.Bağırlı və b.) tərəfindən daha əhatəli öyrənilmişdir. Bununla yanaşı, bu sahədə fundamental tədqiqatlar da vardır ki, onlar özünüaktuallaşdırmanın psixoloji mexanizmlərini açmağa cəhd göstərmişlər (K.Qoldşteyn, A.Maslou, K.Rocers, K.Yunq, Z.Freyd, U.Qlasser, A.Adler, K.Xorni, Q.Olport, E.Fromm, S.Anqiyol, Ç.Mid, C.Kuli, F.Perlz, B.Bratus, A.Lenotyev, K.Abulxanova-Slavskaya, B.Ananyev, D.-Leontyev V.Cudnovski, və b). Lakin bütün bunlarla yanaşı, yeniyetmələrdə özünüaktaualalşdırmanın peşəyönümünə təsiri məsələləri yeni şəraitdə və fərqli milli-etnik mühitdə sistemli tədqiq olunmamışdır ki, bu da problemin aktual olduğundan xəbər verir.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın əsas obyekti özünüaktauallaşdırmanın və peşə seçiminin psixoloji xüsusiyyətləridir. Tədqiqatın predmeti yeniyetmələrdə özünüaktauallaşdırmanın peşə seçiminin təsirinin psixopedaqoji məsələləri, peşə seçiminin formalaşmasına təsir göstərən amillər, o cümlədən özünüaktuallaşdırma və peşəseçiminin istiqamətlərinin öyrənilməsidir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Disseratsiyanın yazılmasının əsas məqsədi yeniyetmələrdə özünüaktauallaşdırmanın peşə seçimində rolunun öyrənilməsi, yeniyetmələrdə peşə seçimində baş verən dəyişikliklərin psixoloji məsələlərinin aydınlaşdırılması, həmçinin özünüaktauallaşdırmanın səviyyələrinin peşə sahələrinin seçilməsinə təsirinin müəyyənləşdirilməsidir. Qarşıya qoyulmuş məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Problemlə bağlı mövcud ədəbiyyatın təhlilinə, mövzunun öyrənilməsinə həsr olunmuş istiqamətlərin müəyyən meyarları əsasında təsnif edilməsi, problemin nəzəri-metdoloji əsaslarının işlənib hazırlanması.
- Yeniyetmələrin özünüaktuallaşdırmasının istiqamətlətrinin və səviyyələrinin müəyyənləşdirilməsi və onun peşə seçiminə təsirinin istiqamətlərinin ayırd edilməsi.
- Problemə həsr edilmiş tədqiqatların müəyyən meyarlar əsasında təsnif edilməsi, peşəseçiminə ailə, həmyaşıdlar və məktəbin təsirinin nəzəri əsaslarının müəyyənləşdirilməsi.
- Yeniyetmələrin peşəseçiminə təsir göstərən psixoloji amillərinin aydınlaşdırılması.
- Yeniyetmələrin özünüaktuallaşdırmasının peşəseçiminə təsiri zamanı mühüm əhəmiyyət kəsb edən amillərin ayırd edilməsi, peşə seçiminin adekvatlığını təmin edəcək prinsiplərin göstərilməsi və zəruri olan tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın fərziyyəsi.** Yeniyetmələrdə peşəseçiminin istiqamətləri özünüaktuallaşdırmanın səviyyələrindən asılı olub, özünüqiymətləndirmə, akedemik naliyyətlər və peşə motivləri ilə şərtlənmişdir.

Əsas fərziyyəyə uyğun olaraq bir əlavə fərziyyə də götürülmüşdür:

- Yeniyetmələrin özünüaktuallaşdırmasının peşəseçiminə təsiri daxili fərdi motivlərin təzahürü fonunda daha intensivdir və onların

düzgün istiqamətləndiril-məsi peşə seçimin adekvatlığına gətirib çıxara bilər.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasını A.Maslounun özünüaktuallaşdırma nəzəriyyəsi və E.Klimovun peşəseçimin istiqamətləri konsepsiyaları təşkil edir. Tədqiqatda aşağıdakı metodikalardan istifadə olunmuşdur:

1. Qiymətləndirmə şkalası (A.Rean və S.Kolominsiki tərəfindən hazırlanmış)
2. Şəxsiyyətin özünüaktuallaşdırma sorğusu (S.Şostrom tərəfindən hazırlanmışdır).
3. Peşə seçiminin motivləri.
4. Peşə sahəsinin ierarxiyası.

Tədqiqata Bakı şəhərində yerləşən Heydər Əliyev adına liseydə oxuyan yeniyetmələr cəlb olunmuşdur. Eksperimentdə 120 nəfər kontrol qrupda, 120 nəfər isə eksperimental qrupda iştirak etmişdir. Cəmi eksperimentə cəlb olunanların sayı 240 nəfər təşkil edir. Aparılmış nəticələrin riyazi-statistik təhlili vasitəsilə həyata keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Əvvəlki tədqiqat işlərindən fərqli olaraq, bu tədqiqat işində yeniyetmələrdə özünüaktuallaşdırmanın peşə seçiminə təsirinin istiqamətləri aşkar edilmiş, bu sahədə mövcud olan elmi biliklər sistemləşdirilmişdir. Bununla yanaşı, müəyyən edilmişdir ki, özünüaktuallaşdırmanın səviyyələrinə uyğun olaraq peşə seçiminin istiqamətləri dəyişir. Bu istiqamətlər daha çox insan-işarələr sistemi, insan-bədii obrazlar və insan-insan kateqoriyalarında daha əhəmiyyətli asılılıq kəsb edir. Həmçinin aşkar olunmuşdur ki, özünüqiymətləndirmənin səviyyəsinin yüksəlməsi özünüaktuallaşdırmanın səviyyəsini yüksəldir və peşə seçiminin adekvatlığını təmin edir. Adekvat özünüqiymətləndirmə səviyyəsində yeniyetmələrin seçdiyi peşələr onların potensial imkanlarına uyğun gəlir. Bütün bunlarla yanaşı, yeniyetmələrdə peşə haqqında təsəvvürlərin onların özünüaktuallaşdırma istiqamətlərinə təsiri də öyrənilmişdir. Aşkar olunmuşdur ki, bu təsirlər əks əlaqəyə malikdir.

Yeniyetmələrin özünüaktuallaşdırması fonunda aparıcı peşə istiqamətləri müəyyən edilmiş, peşəseçimində ortaya çıxan problemlərin korreksiyası yolları göstərilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- Özünüqiymətləndirmənin dəyişməsi nəticəsində özünəmünasibətdə pozitiv cəhətlər meydana çıxır və yeniyetmə öz potensial imkanlarını zəruri olan və mövcud potensiala uyğun sahədə gerçəkləşdirməyi məqsəd kimi qarşıya qoyur.
- Yeniyetmələrdə özünüaktuallaşdırmanın və peşə seçimini fəallaşdırmaq üçün təlimin və şəxsiyyətlərarası münasibətlərin harmonik qurulması çox vacibdir. Əgər müvəqqəti eksperimental qruplarda aparılan formalaşdırıcı işlər nəticəsində dinamik dəyişiklik baş verirsə, deməli, əlverişli təhsil mühitinin yaradılması və şəxsiyyətlərarası münasibətlərin düzgün qurulması bu problemləri həll edə bilər.
- Təhlükəsizliyə və ünsiyyətə olan tələbatla yeniyetmələrin özünüaktuallaşdırması arasında əhəmiyyətli əlaqə var və əlaqə müsbətdir. Özünüaktuallaşdırmanın bütün şkalaları deyil, bir neçə şkalası ilə peşə seçimi arasında korrelyativ əlaqə var və bu əlaqə ikitərəflidir. Xüsusilə dəsətək, senzitivlik, spontanlıq, özünəhörmət, idrak tələbatlar şkalası ilə peşəseçimi arasında asılılıq özünü göstərir.
- Təlim nailiyyət ilə özünüaktuallaşdırma arasında əhəmiyyətli korrelyasiya əlaqəsi var. Təlim nailiyyətlər yüksəldikcə özünüaktuallaşdırmanın səviyyəsi yüksəlir. Yeniyetmələrdə təlim nailiyyətləri üzrə iki qruplararası müqayisədə fərqlər özünü göstərir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti**. Əldə olunmuş nəticələr pedaqoji psixologiyanı yeni elmi biliklərlə zənginləşdirə, peşə seçimi və özünüaktuallaşdırma sahəsində yeni elmi istiqamətlərin meydana gəlməsinə zəmin yarada bilər. Yeniyetmələrdə özünüaktauallaşdırmanın peşə seçiminə təsirinin psixopedaqoji məsələlərinin eksperimental tədqiqi nəticəsində əldə olunmuş nəticələrdən, ideya və fikirlərdən müəllimlər üçün metodiki tövsiyyə hazırlanmasında, peşə seçimi üçün profesioqramanın tərtibində, eləcə də seçmə fənlərin və seçmə fənlərin tədrisində də istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Tədqiqatın nəticələri BDU-nun Sosial elmlər və pedaqoji psixologiya kafedrasının elmi seminarlarında, müxtəlif elmi konfranslarındakı məruzə və çıxışlarda müzakirə edilmişdir.

Dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri bir neçə elmi məqalə, məruzə və tezislər şəklində çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla disertasiyanın işarə ilə ümumi həcmi.**

Dissetasiya giriş, 3 fəsil, (səkkiz yarımfəsil), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən (251535 işarədən) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı, işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, fərziyyəsi, məqsəd və vəzifələri açıqlan-mış,elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar, işin nəzəri, praktik əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiyanın **"Özünüaktuallaşdırmanın tədqiqi istiqamətləri və peşəseçimin psixopedaqoji məsələləri"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir. DissertasiyanınI fəslinin **"Müxtəlif psixoloji məktəblərdə özünüaktuallaşdırmanın tədqiqi istiqamətləri"** adlanan birinci yarımfəslində problemin öyrənilməsinin konseptual istiqamətləri müəyyənləşdirilir və əsas prinsiplər göstərilir. Bununla yanaşı müxtəlif elm sahələrində aparılmış tədqiqatların xarakterinə görə özünüaktuallaşdırmanın əsas istiqamətləri ayırd edilir. Problemə həsr olunmuş psixoloji və fəlsəfi ədəbiyyatın təhlili göstərir ki, özünüaktullaşdırma anlayışı psixologiya tarixində özünməxsus yer tutmuş bir çox anlayşılarla paralel olaraq özünə vətəndaşlıq hüququ qazana bilmişdir. "*Bu anlayışın taleyi bu və ya digər dərəcədə Z.Freydin" libidio", K.Yunqun "arxetip" kimi anlayışları kimi uğurlu olmuş, psixoloji, fəlsəfi və iqtisadi nəzəriyyələrdə dönə-dönə müraciət olunmuşdur."*[1]

Özünün insanın motivasiyası haqqında orijinal məqaləsində ilk dəfə olaraq insan tələbatlarının ierarxiyasının göstərən A. Maslou özünüaktuallaşdırmanı "İnsanın çata biləcəyinə nail olması" kimi

---

[1] http://sergeychet.narod.ru/socio/motiv/cht5_edition1.html

təsvir edir. *Məhz bu tələbatı özünüaktuallaşdırma tələbatı adlandırmaq olar*[2]. Həmçinin özünüaktuallaşdırma "İnsanın qabiliyyətlərinin və resurslarının maksimal ifadəsinə yönəlmiş psixoloji prosesdir. *Bu proses bir insandan digərinə keçdikdə fərqlənə bilir"* [3]. Başqa sözlə, bizim məqsəd daxilində özünüaktuallaşdırma insanın özünün yaradıcı, intellektual və sosial potensialının bütünlüklə gerçəkləşdirilməsidir.

Dissertasiyanın I fəslinin **"Özünüaktuallaşdıran şəxsiyyətin psixoloji keyfiyyətləri"** adlanan ikinci yarımfəslində özünüaktuallaşdıran şəxsiyyətin psixoloji keyfiyyətləri təsvir edilir, müxtəlif meyarlar üzrə təsnifat qeyd edilir. Bu yarımfəsildə göstərilir ki, şəxsiyyətin inkişaf istiqamətlərinin özünüaktuallaşdırma tələbatı ilə əlaqəsini bilmədən mühüm problemlərin, o cümlədən cəmiyyətdə şəxsiyyətin özünüaktuallaşdırma imkanlarını müəyyən etmək çətindir. Lakin özünüaktuallaşdırma öz-özünə baş verə bilməz. Özünüaktuallaşdıran insan və ya şəxsiyyətdir. Bu vəzifənin uğurlru həlli üçün özünüaktuallaşdırmanın istiqamətlərinin və onun şəxsiyyətin formalaşmasında rolunun hansı səviyyədə olduğunu aydınlaşdırmaq zəruridir.

Aparılan tədqiqatların təhlilində özünüaktuallaşdırma nəzəriyyəsinin müxtəlif kontekstlərdən təqdiminə rast gəlirik. Bu da özünüaktuallaşdırna insnalara baxış bucağını dəyişir. Belə ki, R.Smit özünüaktuallaşdırma ideyasının üç kontekstini ayırd edir:

1. Özünüaktuallaşdıran şəxsiyyət;
2. Pik yaşantılar (peak-experiences), transendental dəyərlər;
3. *Özünüaktuallaşdırma inkişaf prosesi kimi*[4].

D.A.Leontyev göstərir ki, *"bu aspektlərdən birindən digərinə keçəndə özünüaktuallaşdırma anlayışının mənası dəyişir, amma bir sistem kimi öz mövcudluğunu itirmir"*[5]. Uzunmüddətli eksperiment-

---

[2] http://sergeychet.narod.ru/socio/motiv/cht5_edition1.html

[3] http://sergeychet.narod.ru/socio/motiv/cht5_edition1.html

[4] Леонтьев Д.А . Самоактуализация как движущая сила личностного развития: историко-критический анализ // Современная психология мотивации / Под ред. Д.А. Леонтьева. М.: Смысл, 2002. с. 13.

[5] Леонтьев Д.А . Самоактуализация как движущая сила личностного развития: историко-критический анализ // Современная психология мотивации / Под ред. Д.А. Леонтьева. М.: Смысл, 2002. с. 15.

lər zamanı A.Maslou müəyyən etdi ki, özünüaktuallaşdıran insanlarda müşahidə olunan keyfiyyətlərin sayı 15 yaxındır. A.Maslounun fikrincə *"özünüaktuallaşdıran insanlar konformist deyillər, ancaq bununla belə düşünülməmiş qiyamçılığa da meylli deyildirlər*[6]. Özünüaktuallaşdıran adamlar öz mədəniyyətlərinə, mədəni dəyərlərinə tənqidi yanaşır, onun yaxşı cəhətlərini qəbul edir, işə yaramayanları isə rədd edirlər. Başqalarından fərqli olaraq, onlar öz mədəniyyəti ilə özlərini identifikasiya etmirlər. Özlərini bütünlüklə insanlıq kontekstində görmək istəyirlər. Ona görə də onlar mədəni dəyərlərin təsir dairəsinə və ya tədricinə məruz qalmırlar A.Maslounun təsnifatında özünüaktuallaşdıran insanın şəxsiyyət keyfiyyətləri yetərincə aydın ifadə olunsa da, bu keyfiyyətlərin yaradıcı insanlara məxsus olması haqqında da fikirlər yetərincədir. Belə qənaətə gəlmək olar ki, özünüaktuallaşdırmayan insanlar üçün kimi isə dərindən sevməyi bacarmamaq hissinin olması, yalnız bugünkü günlə yaşamaq, dəyərli və ləyaqətli nə isə görmək arzusunun olmaması, şəxsiyyətini kamilləşdirmək axtarışlarının məhdudluğu və qeyri-etik davranış xarakterikdir. Özünüaktuallaşdırna şəxslərdə bu tamamilə əksinədir.

Dissertasiyanın I fəslinin **"Peşəseçimi və onun psixoloji mexanizmləri"** adlanan üçüncü yarımfəslində peşəseçiminin mahiyyəti və əsas psixoloji mexanizmləri göstərilir. Burada qeyd edilir ki, müasir dövrdə gənclər peşəni seçərkən hansı sahənin daha çox prestij gətirəcəyi haqqında fikirləşirlər. Peşə təkcə pul qazanmaq, dolanışıq məqsədi ilə yox, həm də özünü ifadə etmək, özünü doğrultmaq üçün seçilməlidir.

Tədqiqatlar göstərir ki, bir çox hallarda uşaqlar öz seçimlərini valideynlərin seçimlərinə qurban verirlər. Lakin burada əsaslı bir məqam var ki, bu yalnız seçimlə bağlı deyil. Məsələ burasındadır ki, uşaq seçdiyi peşəyə özünün potensial imkanlarının olduğunu hiss etməlidir. Bu olmadıqda peşəseçimi deformasiyaya uğrayır və peşə subyekti frustrasiyaya məruz qalır. Nəzərə almaq lazımdır ki, bununla belə valideyninin istəyi ilə seçilən peşədə uşaq heç bir uğur qazana bilmir, çünki uşağın bu peşəyə həm sevgisi, həm də potensialı olmur. "Dünyada 240 minə yaxın peşə növü var. Ancaq peşə dünyası

---

[6] Маслоу А. Психология бытия. М.: Рефл-бук – К, 2003,с.27.

statik deyil.Peşə dünyasında yeni peşələr ortaya çıxır və köhnələrə sıradan çıxır. Peşənin orta yaşam tərzi 5-15 ilə yaxındır. Bununla belə, bir sıra peşələr öz məzmun və formasının özünün əvvəlki məzmununa uyğun olmayacaq tərzdə dəyişə bilir ki, *bu da yeni peşələrin ortaya çıxmasına zəmin yaradır*[7]."

Y.A.Klimov peşəyönümü işinin əhəmiyyətini vurğulayaraq yazır: *"Yeniyetməyə peşə dünyasında geniş və lazımi istiqamət almaqda hər cür kömək etmək lazımdır. O, öz həyat yolunun layihəsinin müəllifi və bu yolun qurucusu olmalıdır"* [8]. Tədqiqatçı "peşəyönümü" və "peşə özünütəyini" anlayışları arasında nisbəti nəzərdən keçirərək qeyd edir ki, *"peşəyönümü məktəblinin "istiqamətləndirilməsidir", peşə baxımından özünütəyin isə özünü təyin edən subyekt rolunda çıxış edən şagirdin "özünü istiqamətləndirməsi" ilə daha çox əlaqəlidir"*[9].

N.S. Pryajnikov hesab edir ki, peşəyönümü işi bütün təhsil prosesinin əsasını təşkil edir. Məhz peşə baxımından və şəxsiyyət kimi özünütəyinetmənin xüsusi təşkil olunmuş müşayiəti kimi başa düşülən peşəyönümü məktəbliyə onun, ümumiyyətlə, nə üçün oxuması sualına cavab verməkdə kömək etməlidir[10]. Bu yarımfəsildə həmçinin peşəyönmümün öyrənilməsi istiqamətləri təhlil olunur, peşəyönmümünüə yaxın olan anlayışlarla əlaqəsi aşkarlanır, yeniyetmələrdə peşəyə maraq yaratmaq üçün zəruri olan motivasiya istiqamətləri haqqında problemlər müzakirə olunur. Belə qənaətə gəlinir ki, peşə seçimi gənclərdə onların maraqlarına, istəklərinə, meyillərinə, bacarıqlarına müvafiq olaraq və müxtəlif profilli mütəxəssislərə olan ictimai tələbat nəzərə alınmaqla peşə baxımından özünütəyinin, şüurlu və əsaslandırılmış peşə seçiminə hazırlığın formalaşmasına yönəldilmiş tədbirlər sistemidir və gənclərin peşə maraqları mütləq nəzərə alınmalıdır.

---

[7] http://www.topauthor.ru/skolko_professiy_sushchestvuet_v_mire_155b.html

[8] Климов Е.А. Как выбирать профессию / Е.А. Климов. М.: Просвещение. 1990. с.132.

[9] Климов Е.А. Как выбирать профессию / Е.А. Климов. М.: Просвещение. 1990. с.120.

[10] Пряжников Н.С. Методы активизации профессионального и личностного самоопределения / Н.С. Пряжников. М. 2002.с.12.

Dissertasiyanın **"Yeniyetməlik yaş dövrünün səciyyəsi və təlim fəaliyyətində özünüaktuallaşdırmanın təzahür xüsusiyyətləri"** adlanan II fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiyanın II fəslinin **"Yeniyetməlik yaş dövrünün psixoloji aspektləri"** adlanan birinci yarımfəslində yeniyetməlikyaş dövrünün psixoloji xüsusiyyətləri araşdırılır, yeniyetməlik yaş övründə baş verən psixoloji, sosial-psixoloji və psixofizioloji dəyişikliklər diqqət mərkəzinə gətirilir. Bu yarımfəsildə qeyd edilir ki, yeniyetməlik dövrü fərdin inkişaf prosesində və ya ümumi ontogenez prosesində mühüm yerlərdən birini tutur. Ənənəvi tədqiqatlarda olduğu kimi yeniyetməlik yaş dövrü yalnız növbəti yaş dövrü kimi deyil, psixi inkişafın xüsusi fazası, uşaqlıqdan böyüklüyə keçid fazası kimi nəzərdən keçirilməsi vacibdir. Tədqiqatlar göstərir ki, yeniyetməlik yaş dövrünə qədər fərdi inkişaf iki dövrü keçir. D.B.Elkoninin apardığı tədqiqatlarda bu dövrləri 3 yaşa qədər erkən uşaqlıq *və 10 yaşa qədər uşaqlıq dövrü kimi səciyyələndirir ." Bu iki dövrü müvafiq uşaqlıq dövrünün vahid yaranma və inkişaf dövrü kimi müəyyən etmək olar. Böyüməkdə olan insanda fəal şəkildə həyat planlarının qurulması və real olaraq böyüklük həyatına daxil olma prosesi gedən yeniyetməlikdən sonrakı pillə iki dövrü: birinci – 17 yaşa qədər və ikinci – 23 yaşa qədər - əhatə edən növbəti müstəqil gənclik dövrünü əhatə edir. Bu dövrlərin pozitiv və ya neqativ inkişaf istiqamətləri yeniyetməlik yaş dövrünün inkişaf xüsusiyyətlərindən asılı olur"*[11].

Bu yarmfəsildə həmçinin yeniyetməlik yaş dövrünə həsr olunmuş tədqiqatlar sistemləşdirlir və hər birinə ayrıca münasibət bildirlir. Qeyd etmək lazımdır ki, yeniyetməlik yaş dövrü psixi inkişafın böhran dövrünə aiddir. Yeniyetmədə çoxlu sayda neqativ təzahürlər, şəxsiyyətin formalaşmasında disharmoniya, əvvəllər formalaşmış maraq dairəsinin dəyişməsi, böyüklərə münasibətdə üsyançı xarakterli davranış və s. qeyd edilir. Lakin bu dövr həm də çoxlu sayda müsbət amillərlə fərqlənir – uşağın müstəqilliyi artır,

---

[11] Фельдштейн Д. И. Психологические основы организации общественно полезной деятельности как средства нравственного воспитания подростков // Вопросы психологии, 1974, № 6, с. 10-24.

onun digər uşaqlarla və böyüklərlə münasibəti daha rəngarəng və dolğun olur, onun fəaliyyət sahəsi əhəmiyyətli dərəcədə genişlənir, forma və növləri dəyişir. Bu yarımfəsildə qeyd olunur ki, yenyetməlik yaş dövründə bir sıra psixoloji dəyişikliklərlə yanaşı həm də psixofizioloji proseslər baş verir ki, bu da yeniyetmənin peşəseçiminə o cümlədən həyata baxışına ciddi təsir göstərir.

Dissertasiyanın II fəslinin **"Yeniyetmələrdə özünüaktuallaşdırmanın inkişaf istiqamətləri** adlanan ikinci yarımfəslində bu yaş dövründə özünüaktuallaşdırmanın təşəkkülü, formalşması və inkişaf etdirilməsi məslələri önə çəkilir. Burada özünüaktuallaşdırma motivinin aparıcılıq xüsusiyyəti vurğulanır, potensila imkanların açılması üçün zəruri olan təhsilmühitinin və münasibətlər sisteminin qurulmasının vacibliyi qeyd edilir. *Müasir psixoloji tədqiqatlar*[12] göstərir ki, yeniyetməlik yaş dövründə toplanan gücün gerçəkləşməsinə tələbat daha aktualdır. Bu yaş dövrünü "özünüdərketmənin inteqrasiyası", "özünüeyniləşdirmə" , "Mən"in kəşfi dövrü adlandırılar.

Yeniyetmənin özünüaktuallaşdırma prosesini fəaliyyətdə öz imkanlarının daha tam şəkildə açılmasına, inkişafına və istifadə edilməsinə meyil kimi səciyyələndirmək daha məntiqə uyğundur. Başqa sözlə, bu proses insanın psixoloji cəhətdən böyüməsinə kömək edən tədricən yığılan nailiyyətlər, imkanlar vəziyyətindən gerçəklik vəziyyətinə və sonradan isə özünüaktuallaşdırmaya keçid prosesidir.

Aparılmış tədqiqatlar göstərir ki, yeniyetmələrdə özünüaktuallaşdırma daxili və xarici enerjinin özünütənzimlənməsinə, özünügücləndirməyə əsaslanan, öz həyatına və hərəkələrinin nəticələrinə görə məsuliyyətin artan dərəcəsində qəbul edilməsində meydana çıxan şəxsiyyət kimi inkişaf prosesidir [13].

Yeniyetmələrin özünüaktuallaşdırması tədris fəaliyyətində baş verir və onların davranışında deviasiya göstərməsindən asılı olmaya-

---

[12] Фельдштейн Д. И. Психологические основы организации общественно полезной деятельности как средства нравственного воспитания подростков // Вопросы психологии, 1974, № 6, с. 10-24.

[13]Джаббаров Р.В.Психопедагогические проблемы и условия самореализации личности в подростковым возрасте // Современные гуманитарные исследование, Москава, 2010, №4, с. 141-148.

raq müsbət dinamikaya malikdir. Özünüaktuallaşdırma aktını həyata keçirməklə yeniyetmə davranışda, ünsiyyətdə, digər şəxslərlə qarşılıqlı münasibətdə ona həyat və cəmiyyət tərəfindən irəli sürülən daha yüksək standartlara və tələblərə müvafiq olan sosial və fərdi səriştəsinin artma səviyyəsinə nail olmaq olar. Ancaq aparılmış tədqiqatların bir qismi göstərir ki, yeniyetmənin özünüaktuallaşdırması üçün digər yaş dövrlərindən fərqli maneələr özünü göstərir ki, bu da yeniyetmənin özünüaktuallaşdırıb gerçəkləşdirməsinə imkan vermir

Dissertasiyanın II fəslinin **"Yeniyetmələrdə peşəseçimin mərhələləri və onun formalaşmasına təsir göstərən amillər"** adlanan üçüncü yarımfəslində peşəseçiminin əsas istiqamətləri və yeniyetmələrdə peşəyönmünün formalşmasının istiqamətləri qeyd edlir. Bu yarımfəsildə göstərilir ki, yeniyetməlik yaş dövründə peşəseçimi yenicə başlayır və özünüatktuallaşdırma fonunda cəmiyyətdə üstün mövqe tutan peşələr yeniyetmələrin daha çox diqqətini cəlb edir. Nəzərə alınmalıdır ki, hər hansı peşəni seçmək üçün əvvəlcədən həmin peşənin nə üçün seçildiyinin mahiyyəti başa düşülməlidir. M.İlyasov yazır ki, "*Təbii ki, seçilən ixtisas və peşə hər bir şəxsin istək və arzusuna, cəmiyyətin sosial – iqtisadi tələbinə müvafiq olmaqla bərabər, seçim edənin də gələcək həyatını təmin edəcək səviyyədə olmalıdır."*[14]. Müəllif peşə seçimində səhvə yol verməmək üçün maraq, motiv, bacarıq və qabiliyyət kimi psixo – pedaqoji amillərin nəzərə alınmasını vacib şərt hesab edir.

Qeyd etmək lazımdır ki, peşə özünütəyinetmə və həyatın ümumi pespektiv planları yeniyetmənin həyatına əhəmiyyətli təsir göstəir və onların cinsi fərqlərində özünü daha aydın şəkildə büruzə verir. Yeniyetmə qızlar peşə təyinində oğlanları üstələyirlər. Qızlar daha çox sosial, artistik istiqamətlərə, oğlanlar isə sahibkarlıq və tədqiqatçılıq istiqamətlərinə üstünlük veririlər. Yeniyetmə oğlanların peşə özünütəyininə uzaq perspektivlər daha çox təsir göstərir. Həyat haqqında planlar nə qədər uzaq məsafəyə hesablanırsa, düzğün peçşə seçimi də bir o qədər adekvat olur. Qızlarda isə əksinə, həyati və

---

[14]İlyasov M.İ. Peşə, ixtisas seçimi. Bakı: ADPU, 2015, s.7.

peşə özünütəyini bir-biri ilə əlaqəli deyildir. Onlarda emosionallıq üstünlük təşkil edir və situativ özünütəyin aparıcıdır.

Dissertasiyanın **“Yeniyetmələrdə özünüaktuallaşdırmanın peşə seçiminə və təlim fəaliyyətinə təsirinin eksperimental-psixoloji tədqiqi”** adlanan III fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiyanın III fəslinin **“Metodikanın təsviri və tədqiqatın təşkili məsələləri”** adlanan birinci yarımfəslində tədqiqatın keçirilməsinin şərtləri, metodikaları və say tərkibi göstərilir. Tədqiqat Bakı şəhərində yerləşən Heydər Əliyev litesində oxuyan 240 yeniyetmə cəlb olunmuşdur. Eksperimentdə 120 nəfər kontrol qrupda, 120 nəfər isə eksperimental qrupda iştirak etmişdir. Tədqiqatın nəticələri riyazi-statistik metdolarla işlənmişdir.

Dissertasiyanın III fəslinin **“Nəticələrin işlənməsi”** adlanan ikinci yarımfəslində aparılmış tədqiqatın nəticələri müzakirə olunur. Bu yarımfəildə qeyd olunur ki, yeniyetmələrdə özünüaktuallaşdırmanın peşəseçiminə təsirinin istiqamətlərini öyrənmək üçün ilk növbədə I mərhələdə nəzərdə tutulduğu kimi özünüaktuallaşdırmanın və peşə seçiminin diaqnostikasını həyata keçirməyə çalışılmışdır. İki qrup seçilmiş və onlarla metodikalar keçirilmişdir. İlkin olaraq yeniyetmələrdə həm kontrol qruplarda, həm də eksperimental qruplarda özünüaktuallaşdırmanın səviyyələri müəyyənləşdirilməyə çalışıldı. Apardığımız tədqiqat göstərdi ki, özünüaktuallaşdırmanın səviyyələri həm kontrol qruplarda, həm də eksperimental qruplarda aşağıdır. Özünüaktaullaşdırmanın yüksək səviyyəsi həm ekperimental, həm də kontrol qrupda bir-birindən kəskin şəkildə fərqlənmir ( 27,3%; 27,5%). Eləcə də aşağı səviyyə də hər iki qrupa eyni intensivliyə malikdir (40,7%;41,1%). Özünüaktuallaşdırmanın hər üç səviyyəsi hər iki qrupda normadan aşağıdır və inkişaf etdirilməsinə zərurət duyulur. Belə bir şəraitdə özünüaktuallaşdırmanın peşə seçiminə təsirinin istiqamətlərini müəyyən etmək üçün şagirdlərin təlim uğurlarının qiymətləndirilməsini məqsədəuyğun hesab etdik. Bu məqsədlə həm də yeniyetmələrin akademik nailiyyətləri eksperimentdən əvvəl qiymətləndirildi. Sorğunun nəticələri göstərdi ki, yeniyetmələrdə “kafi”, “yaxşı” və “əla” oxuyanların faiz dərəcələri istər eksperimental qrupda olsun, istərsə

də kontrol qrupda özünüaktuallaşdırmanın səviyyələrinə uyğundur. Bu fakt göstərir ki, akademik naliyyətlərlə özünüaktuallaşdırmanın səviyyələri arasında müəyyən asılılıq var. Yeniyetmələrdə özünüaktaullaşdırma ilə özünüqiymətləndirmənin əlaqələrinin müəyyən edilməsi zamanı aşkar olundu ki, özünüqiymətləndirmə ilə özünüaktuallaşdırma arasında müəyyən əlaqə var.

Yeniyetmələrdə özünüaktaullaşdırma ilə özünüqiymətləndirmənin əlaqələrinin göstəriciləri (eksperimentdən əvvəl)

**Cədvəl 1**

| | | Özünüqiymətləndirmə | Özünüaktuallaşdırma |
|---|---|---|---|
| Özünüqiymətləndirmə | Pearson Correlation | 1 | 0.002 |
| | Sig. (2-tailed) | | 0.971 |
| | N | 240 | 240 |

Cədvəl 1.-dən göründüyü kimi özünüaktuallaşdırma ilə özünüqiymətləndirmə arasında əlaqə olduqca zəifdir və ya tendensiya xarakterlidir (Sig=0.971, p=0.002). Bu fakt onu göstəirir ki, özünakatuallaşdırmanın müəyyən səviyyəsinə özünüqiymətləndirmənin səviyyələrinə müvafiqdir.

Tədqiqatın II mərhələsində yeniyetmələrdə özünüaktuallaşdırmanın səviyyəsinin yüksəldilməsinin peşə seçiminə hansı aspektdə təsir göstərməsini müəyyən etmək üçün onlarla formalaşdırıcı işlər aparıldı və frmalşadırıcı işdən sonra yenə ölçmələr aparıldı. Apardığımız eksperiment göstərdi ki, yeniyetmələrdə özünüaktuallaşdırmanın səviyyəsinin yüksəldilməsi, eləcə də yeniyetmənin öz potensial imkanlarına münasibətin dəyişməsi nəticədə peşə seçiminə əhəmiyyətli təsir göstərməyə başladı.

Özünüaktuallaşdırmanın səviyyələrinin iki qrup arasında müqayisəsi (eksperimentdən sonra)

**Cədvəl 2**

| Özünüaktuallaşdırmanın səviyyələri (nəfərlə) | | | | |
|---|---|---|---|---|
| | Zəif | Orta | Yüksək | Total |
| Kontrol | 56 | 36 | 28 | 120 |
| Eksperimental | 43 | 44 | 33 | 120 |

Nəticə göstərdi ki, özünüaktuallaşdırmanın səviyyələrinin yüksəlməsinə, peşə seçiminin dəqiqləşdirilməsinə gətirib çıxara bilən əsas elementlərdən biri özünüqiymətləndirmədir. Məhz özünüqiymətləndirmənin dəyişməsi nəticəsində özünüəmünasibətdə pozitiv məqamlar ortaya çıxır və yeniyetmə öz potensial imkanlarını zəruri olan və potensiala uyğun sahədə gerçəkləşdirmyi məqsəd kimi qarşıya qoyur.

Yeniyetmələrdə özünüqiymətləndirmənin səviyyələrinin statistik göstəriciləri

**Cədvəl 3**

| Müstəqil nümunələr testi | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | t | df | Sig. | Orta fərq göstəricisi (MD) | Yayınmalar (Std. Error Difference) | 95% interval fərqi (Confidence Interval of the Difference) | |
| | | | | | | Aşağı | Yuxarı |
| Ozünüqiymətləndirmə | -2.933 | 238 | 0.004 | -0.147204 | 0.050194 | -0.246086 | -0.048322 |

Cədvəl 3-dən göründüyü kimi eksperimental qrupda olan yeniyetmələrdə özünüqiymətləndirmənin səviyyəsi müxtəlif kriteriyalar üzrə dəyişsə də, bu p= 0,004 səviyyəsindədir və bu o deməkdir ki, bu qrupda olan yeniyetmələrdə özünüqiymətləndirmə adekvatdır və yeniyetmə özünün peşə seçimində öz imkanlarını nəzərə alır. Bununla yanaşı yeniyetmələrin özünüaktuallaşdırmasının peşə seçiminə təsirini öyrənmək üçün onların tələbatlarının ierarxiyasına nəzər salmağı məqsədəuyğun hesab etdik.

Cədvəl 4-dən görünür ki, özünüaktuallaşıdırmanın bütün şkalaları deyil, bir neçə şkalası ilə peşə seçimi arasında korrelyativ əlaqə var və bu əlaqə ikitərəflidir. Dəstək şkalası ilə peşə seçimi arsında əlaqə (Sig.= 0.009, p=0,01 səviyyəsində) daha yüksəkdir. Bununla yanaşı senzitivlik şkalası ilə (Sig.= 0.000, p=0,001 səviyyəsində), spontanlıq şkalası ilə (Sig.= 0.004, p=0,05 səviyyəsində), özünəhörmət şkalası ilə (Sig.= 0.025, p=0,05 səviyyəsində), insanın

təbiəti haqqında təsəvvürlər şkalası ilə (Sig.= 0.032, p=0,05 səviyyəsində ), sinergiya şkalası ilə (Sig.= 0.000, p=0,01 səviyyəsində), aqresiyya şkalası ilə (Sig.= 0.000, p=0,01 səviyyəsində), idraki tələbatlar (Sig.= 0.031, p=0,05 səviyyəsində), kreativlik şkalası ilə də (Sig.= 0.006, p=0,05 səviyyəsində ) asılılıq özünü göstərir.

Cədvəl 5-dən göründüyü kimi yeniyetmələrdə müxtəlif peşə növlərinin özünüaktuallaşdırma ilə əlaqəsi əhəmiyyətlidir və bu əlaqə texniki sahələrin seçilməsi ilə (sig=0.000, p=0,01 səviyyəsində), işarələrə uyğun peşə seçimi ilə (sig=0.000, p=0,01 səviyyəsində) və bədii obrazların seçilməsi ilə (sig=0.019, p=0,05 səviyyəsində) əhəmiyyəıtldir. Görünür ki, özünüaktuallaşdırmanı bir çox hallarda peşə seçimi ilə eyniləşdirmək olar. Ancaq yalnız yeniyetməlik yaş dövründə bu mümkündür. Çünki sonrakı yaş dövrlərində peşə sahəsində özünüaktuallaşdırma yalnız şəxsiyyətin peşəyönümündə özünüaktauallaşdırma hesab olunur. Bütünlüklə özünüaktuallaşdırma insanın öz potensialına uyğun gələn sahədə özünü həyata keçirmədir. Bildiyimiz kimi yeniyetmələr öz potensialları haqqında yetərli məlumatlara və ya bilkilərə mailk deyildirlər, bu sonradan peşə sahəsinin dəyişməsində, və ya seçimində də özünü göstərə bilər.

Tədqiqat göstərdi ki, peşə motivləri içərisində özünü-aktuallaşdırma ilə korrelyasiya olunan motivlər daxili-fərdi motivlərdir. Bu zaman asılılıq sig= 0.118 tendensiya xarakterlidir və p= 0.001 səviyyəsində asılılıq var. Göründüyü kimi peşə seçimində daxili-fərdi motivlər daha çox üstünlük təşkil edir ki, bu da özünü-aktuallaşdırmaya uyğundur. Yeniyetməlik yaş dövründə peşə motivasiyası daha çox subyektiv təsəvvürlərə və arzulara əsaslanır ki, bu da daxili fərdi motivlərdə öz əksini tapır.

Tədqiqat göstərdi ki,yeniyetmələrdə akademik nailiyyət üzrə qruplararsı müqayisədə eksperimental və kontrol qruplarda fərqlər özünü göstərir. Eksperimental qrupda akademik nailiyyətlər yüksəkdir və onun özünüaktuallaşdırma ilə korrelyasiya əlaqəsi əhəmiyyətli və müsbətdir.

Yeniyetmələrdə özünüaktuallaşdırma ilə peşəseçimi arasında statistik göstəricilər

**Cədvəl 4**

| Özünüaktuallaşdırma | Peşə seçimi | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Şkalalar | t | df | Sig. (2-tailed) | Mean Difference | Std. Error Difference | 95% Confidence Interval of the Difference | |
| | | | | | | Lower | Upper |
| Vaxtı təyinetmə şkalası | .335 | 238 | 0.738 | .100 | .298 | -.487 | .687 |
| Dayaq skalası | 2.629 | 238 | 0.009 | 2.475 | 0.941 | 0.620 | 4.330 |
| Dəyərlər şkalası | -.212 | 238 | 0.832 | -0.075 | 0.354 | -0.772 | 0.622 |
| Davranış şkalası | .145 | 238 | 0.885 | 0.058 | 0.404 | -0.737 | 0.853 |
| Senzitivlik şkalası | 4.722 | 238 | 0.000 | 1.042 | 0.221 | 0.607 | 1.476 |
| Spontanlıq şkalası | -2.875 | 238 | 0.004 | -0.800 | 0.278 | -1.348 | -0.252 |
| Özünəhörmət şkalası | 2.261 | 238 | 0.025 | 0.600 | 0.265 | 0.077 | 1.123 |
| Özünüdərk şkalası | 0.050 | 238 | 0.960 | 0.017 | 0.333 | -0.640 | 0.673 |
| İnsanın təbəti haqqında təsəvvürlər şkalası | 2.153 | 238 | 0.032 | 0.442 | 0.205 | 0.038 | 0.846 |
| Sinergiya şkalası | 3.642 | 238 | 0.000 | 0.575 | 0.158 | 0.264 | 0.886 |
| Aqressiya şkalsı | -5.075 | 238 | 0.000 | -1.517 | 0.299 | -2.105 | -0.928 |
| Əlaqə şkalası | 1.267 | 238 | 0.206 | 0.450 | 0.355 | -0.250 | 1.150 |
| İdraki tələbatlar | 1.806 | 238 | 0.031 | 0.483 | 0.212 | -0.035 | 0.801 |
| Kreativlik şkalsı | -2.750 | 238 | 0.006 | -0.617 | 0.224 | -1.058 | -0.175 |

Yeniyetmələrdə müxtəlif peşə sahələri ilə özünaktuallaşdırma arasında korrelyasiya əlaqələri

**Cədvəl 5**

| Müxtəlif peşə seçimi növləri | Özünaktuallaşdırma | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Meyarlar | | | | | | 95% Confidence Interval of the Difference | |
| | t | df | Sig. (2-tailed) | Mean Difference | Std. Error Difference | Lower | Upper |
| Pese secimi-tebiet | -.036 | 238 | 0.971 | -0.008 | 0.231 | -0.463 | 0.447 |
| Pese secimi-texnika | -3.691 | 238 | 0.000 | -0.717 | 0.194 | -1.099 | -0.334 |
| Pese secimi-insan | -1.339 | 238 | 0.182 | -0.250 | 0.187 | -0.618 | 0.118 |
| Pese secimi-isareler | 4.580 | 238 | 0.000 | 0.975 | 0.213 | 0.556 | 1.394 |
| Pese secimi-bedii obrazlar | -2.371 | 238 | 0.019 | -0.550 | 0.232 | -1.007 | -0.093 |

Yeniyetmələrdə peşə motivlərinin statistik göstəriciləri

**Cədvəl 6**

| | Müstəqil nümunələr testi | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | t | df | Sig. (2-tailed) | Mean Difference | Std. Error Difference | 95% Confidence Interval of the Difference | |
| | | | | | | Lower | Upper |
| Peşə seçimi motivləri-daxili- fərdi | -1.568 | 238 | 0.118 | -0.517 | 0.329 | -1.166 | 0.132 |
| | -1.568 | 221.216 | 0.118 | -0.517 | 0.329 | -1.166 | 0.133 |
| Peşə seçimi motivləri-daxili- sosial | -1.186 | 238 | 0.237 | -.0425 | 0.358 | -1.131 | 0.281 |
| | -1.186 | 236.321 | .237 | -0.425 | 0.358 | -1.131 | 0.281 |
| Peşə seçimi motivləri-xarici -müsbət | -0.107 | 238 | 0.915 | -0.042 | 0.388 | -0.806 | 0.723 |
| | -0.107 | 229.446 | 0.915 | -0.042 | 0.388 | -0.807 | 0.723 |
| Peşə seçimi motivləri-xarici -mənfi | 0.702 | 238 | 0.484 | 0.342 | 0.487 | -0.618 | 1.301 |
| | 0.702 | 219.181 | 0.484 | 0.342 | 0.487 | -0.618 | 1.301 |

Yeniyetmələrdə akademik nailiyyətlə özünüaktuallaşdırmanın korrelyasiyası

**Cədvəl 7**

| | Özünüaktuallaşdırma | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | t | df | Sig. (2-tailed) | Mean Difference | Std. Error Difference | 95% Confidence Interval of the Difference | |
| | | | | | | Lower | Upper |
| Akademik nailiyyet | -2.455 | 238 | 0.015 | -0.225 | 0.092 | -0.406 | -0.044 |
| | -2.455 | 233.435 | 0.015 | -0.225 | 0.092 | -0.406 | -0.044 |

Cədvəl 6-dan göründüyü kimi yeniyetmələrdə akademik nailiyyət üzrə qruplararsı müqayisədə eksperimental və kontrol qruplarda fərqlər özünü göstərir. Eksperimental qrupda akademik nailiyyətlər yüksəkdir və onun özünüaktuallaşdırma ilə korrelyasiya əlaqəsi əhəmiyyətli və müsbətdir.

Cədvəl 7-dən göründüyü kimi akademik nailiyyətlə özünaktuallaşdırma arasında sig=0.015, p=0.05 səviyyəsində korrelyasiya əlaqəsi var. Doğrudur, bu əlaqə zəifdir və tendensiya xarakterlidir, ancaq mövcuddur. Akademik nailiyyətlər yüksəldikcə özünüaktuallaşdırmanın səviyyəsi yüksəlir.

Beləliklə apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

- Aparılmış tədqiqatlar göstərir ki, özünüaktuallaşdırma problemi keçən əsrin 30-cu illərindən başlayaraq elmi dövriyyəyə buraxılmış və ilkin olaraq özünüaktuallaşdırma dedikdə xəstəliyə qədər mövcud olan və aktuallaşmamış potensial nəzər-

də tutulmuşdur. Yəni özünüaktuallaşdırma hələ gerçəkləşməmiş və sıxışdırılmış imkanlar kimi səciyyələndirilirdi.

- Tədqiqat göstərdi ki, yeniyetmələrdə özünüaktuallaşdırmanın səviyyəsinin yüksəldiməsi bir sıra amillərdən, o cümlədən yeniyetmənin özünəmünasibətindən, öz potensial imkanlarına münasibətin dəyişməsindən və onlarla aparılan formalaşdırıcı işin xarakterindən asılıdır.
- Aydın oldu ki, özünüakatuallaşdırmanın səviyyələrinin yüksəlməsinə, peşə seçiminin dəqiqləşdirilməsinə gətirib çıxara bilən əsas inteqrativ sistemlərdən biri özünüqiymətləndirmədir. Özünüqiymətləndirmənin adekvatlığı peşə seçiminin və özünüaktuallaşdırmanın istiqamətlərini müəyyən edir.
- Aparılmış tədqiqatlar göstərir ki, özünüaktuallaşdırma şəxsiyyət keyfiyyəti kimi də öyrənilir. Hesab olunur ki, bu xüsusi keyfiyyətdir və spontan davranışda təzahürü edir. Fikrimizcə, özünüaktuallaşdıran şəxsiyyətin məxsusi keyfiyyətləri müəyyən qəlibə salına bilməz. Çünki elə keyfiyyətlər var ki, onlar yalnız situativ təzahürlərə malikdirlər ki, onları daima izləmək olmur.
- Yeniyetmələrin özünüaktuallaşdırmasının peşə seçiminə təsiri zaman tələbatlarının ierarxiyasında təhlükəsizliyə olan tələbatla ($r=0{,}004$, $p=-0{,}554$) və şəxsiyyətlərarası münasibətlərə tələbatla özünüaktuallaşdırma arasında əlaqə var və bu əlaqə əlaqə əhəmiyyətlidir ($r=0{,}42, p=3.014$).
- Tədqiqat göstərdi ki, yeniyetmələrdə müxtəlif peşə növlərinin özünüaktuallaşdırma ilə əlaqəsi əhəmiyyətlidir və bu əlaqə texniki sahələrin seçilməsi (sig=0.000, $p=0{,}01$ səviyyəsində), işarələrə uyğun peşə seçimində (sig=0.000, $p=0{,}01$ səviyyəsində) və bədii obrazların seçilməsində (sig=0.019, $p=0{,}05$ səviyyəsində) əhəmiyyətlidir.
- Peşə motivləri içərisində özünüaktuallaşdırma ilə korrelyasiya olunan motivlər daxili fərdi motivlərdir. Bu zaman asılılıq tendensiya xarakterlidir.
- Yeniyetmələrdə akademik nailiyyətlər üzrə qruplararsı müqayisədə fəqlər özünü göstərir. Eksperimental qrupda akademik nailiyyətlər yüksəkdir və onun özünüaktuallaşdırma

ilə korrelyasiya əlaqəsi əhəmiyyətlidir və müsbətdir.Bütün bunlarla yanaşı, müəyyən edildi ki, özünüqiymətləndirməni yüksəltməklə özünüifadənin intensivliyini artırmaq və bununla da öz potensialının ölçüsünü ayırd etmək olar. Faktlar göstərir ki, məhz özünü adekvat qiymətləndirən yeniyetmələrdə özünüaktuallaşdırma motivləri daha yüksəkdir və təlim fəaliyyətidə uğurlar mütamadidir.

**Dissertasiyanın məzmunu müəllifin dərc edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Özünüaktuallaşdırmanın tədqiqinin metodoloji istiqamətləri // - Bakı: Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, - 2015, №4, s.93-98
2. Özünüaktuallaşdırma fenomeni və şəxsiyyətin inkişaf istiqamətləri //-Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, -2015, №6, s.384-392
3. Müasir dövrdə yeniyetmələrin psixi inkişafının xüsusiyyətlərinin tədqiqiq // -Bakı: Psixologiya jurnalı, -2016, №3, s.63-74
4. Yeniyetmələrdə özünüaktuallaşdırmanın inkişaf istiqamətləri //-Bakı: Psixologiya jurnalı, -2016, №4, s.81-91
5. К проблема самоактуализации / Актуальнй питання суспйльних наук: Материали миждинародной наукова-проктичной конаеранции. -2018, -Kiev, s.44-47
6. Особенности самоактуализации в подростковом возрасте / -Problems Of Modern Education. Materials of the IX international scientific conference, Praqa-2018, s.99-101
7. Experimental-psychological research as a main factor in self-actualization and profession selection of adolescents // Periódico do Núcleo de Estudos e Pesquisas sobre Gênero e Direito Centro de Ciências Jurídicas - Universidade Federal da Paraíba, -Peru V. 8 - Nº 07- , p.536-551

8. La influencia de la autorrealización de los adolescentes en la elección de una profesión // Revista Dilemas Contemporáneos: Educación, Política y Valores, Braziliya -2019, -p.1-15,

Dissertasiyanın müdafiəsi 11 mart 2022-ci il tarixində saat $12^{00}$ –da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ -11 48, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Əsas bina.

Dissertasiya ilə Bakı Dövlət Univeristetinin kitabxanasında tanış olmaq mümkündür.
Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Univeristetininrəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 08 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 31.01.2022
Kağızın formatı: 60x84 1/16
Həcm: 1,75 ç. v.
Tiraj: 100